"Balakən Azərbaycanın çox gözəl guşəsidir" İlham ƏLİYEV




YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 05 (05) ✦ Oktyabr 2024-cü il

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin müavini Həsənli Həsən Həbib oğlu Balakəndə vətəndaş qəbulu həyata keçirdi



Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin müavini Həsənli Həsən Həbib oğlu Balakəndə vətəndaş qəbulu həyata keçirdi.

Elm və Təhsil Nazirinin müavini Həsənli Həsən Həbib oğlu Balakən Rayon İcra Hakimiyyətinin Başçısı İslam Rzayevlə birgə Ulu Öndər Heydər Əliyevin dağüstü parkda yerləşən abidəsini ziyarət edərək,önünə tər çiçək dəstələri qoydular.Sonra rayon rəhbəri qonağı Balakən Uşaq İncəsənət Məktəbi ilə tanış edərək,məktəbin açılışını cənab Prezidentin etdiyini və ölkədə nadir məktəblərdən olduğunu bildirdi.

Vətəndaş qəbulu da elə Balakən Uşaq İncəsənət Məktəbində təşkil olunaraq,hər cürə şərait yaradıldı. Nazir müavini Həsən müəllim bölgənin, regionun hər yerindən qəbula gəlmiş vətndaşları qəbul etdi.









Ev sahibi, Balakən UİM-in direktoru Arifə Tağıyevanın təşkilatçılığı yüksək səviyyədə idi.

**Ramazan ABAL.**

# Prokurorluq işçilərinin peşə bayramı günü

Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır.



Balakən rayonunda da bu gün rayon prokurorluq işçiləri öz peşə bayramlarını yüksək səviyyədə qeyd etdilər. Rayon rəhbəri İslam Rzayev, rayon prokuroru Camal Bağırov, hüquq mühafizə orqanlarının rəhbərləri və digər qonaqlar dağüstü parkdakı Ulu Öndərin abidəsini ziyarət edərək tədbirə başladılar. İslam müəllim prokurorluq işçilərini təbrik etdi, işlərində uğurlar dilədi..

Sonda xatirə şəkil çəkdirdilər.

**YENİ BALAKƏN**



# Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov Balakəndə vətəndaş qəbulu keçirib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov Balakən rayonunda vətəndaş qəbulu keçirib. Qəbulda 20-ə yaxın vətəndaş iştirak edib. Qəbul zamanı imtiyazlı şəxslərin mənzil (fərdi ev), avtomobil təminatı, səyyar sosial xidmətin təşkili, sanatoriya-kurort yollayışları ilə təminat və s. mövzularda müraciətləri cavablandırılıb.

**YENİ BALAKƏN**

# 5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür





Beynəlxalq Müəllimlər Gününün qeyd olunması ilə bağlı qərarı YUNESKO 1966-cı il oktyabrın 5-də vermişdir. Bu təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul olunmuşdur. İndi oktyabrın 5-ni dünyanın 100-dən artıq ölkəsi müəllimlərin peşə bayramı kimi qeyd edir. Müstəqil Azərbaycan Respublikasında Beynəlxalq Müəllimlər Günü 1993-cü ildən qeyd edilir. Ölkəmizdə bu günə dövlət səviyyəsində diqqət ayrılır. "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb.

Artıq dördüncü ildir ki, Azərbaycan müəllimi Beynəlxalq Müəllimlər Gününü qalib xalqın qalib övladı olaraq bayram edir. İşğaldan azad edilmiş ərazilərimizdə məktəblər fəaliyyətə başlayıb.

Xatırladaq ki, Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində 20 məktəb direktoru, 32 direktor müavini, 671 müəllim düşmənə qarşı vuruşaraq qəhrəmanlıqlar göstərib. Bu müharibədə 20 təhsil işçisi döyüşlərdə şəhidlik zirvəsinə ucalıb...

Balakən şəhərinin böyük məktəblərindən olan Nəsimi adına şəhər 2 saylı tam orta məktəbində 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü müxtəlif tədbirlərlə yüksək səviyyədə qeyd olundu. Kazımova Mehriban müəllimənin təşkilatçılığında, 4a sinfi "Müəllim ömrü" adlı, yadda qalan tədbiri ilə



müəllimləri təbrik etdi. Məktəbin daha bir tədbiri isə 6-cı siniflər arasında müəllim gününə həsr olunmuş idman yarışı oldu. Müxtəlif idman növlərində yarışan məktəblilər qələbələrini sevimli müəllimlərinə həsr etdilər.Nəsimi adına şəhər 2 saylı tam orta məktəbi rayon məktəbləri arasında seçilən, öz dəsti xətti ilə bilinən, özünə məxsus tədbirləri ilə yadda qalan məktəbdir. Keyfiyyətli təhsil verən bu məktəb çoxu zaman rayon, region bəzən də respublika əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. Əlbəttə ki, bu işlərdə məktəbin direktoru Samirə xanım Varansovanın idarəçiliyi, təşkilatçılığı, qabiliyyəti ön planda, danılmazdır.

5 Oktyabr Beynəlxalq Müəllim Günü münasibətilə məktəbin müəllimələrindən Qurbanova Nübar Yaşar qızı Şəki-Zaqatala Regional Təhsil İdarəsi tərəfindən, Kazımova Mehriban Fazil qızı isə Balakən rayon Təhsil Sektoru tərəfindən "Fəxri Fərman"la təltif edildilər.

Biz də mətbuat olaraq, Balakən Təhsil Sektorunu başda Mehparə Mirzəyeva olmaqla bütün pedoqoji kollektivi, Azərbaycan müəllimlərini 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edir, ən xoş diləklərimizi, arzularımızı bildiririk.

Əziz müəllimlər, bayramınız mübarək!

**Ramazan ABAL**

# Azərbaycan öz potensialı hesabına enerji təhlükəsizliyini 100 faiz təmin edir



Oktyabrın 20-si Azərbaycanda Energetiklər Günüdür. İyirmi ildir ki, Azərbaycan energetikləri öz peşə bayramlarını iftixarla qeyd edirlər. Energetiklər Günü ölkəmizin həyatında xüsusi əhəmiyyət kəsb edən əlamətdar hadisə ilə bağlıdır: 42 il əvvəl, 1981-ci il oktyabrın 20-də "Azərbaycan" istilik elektrik stansiyasının (İES) birinci enerji bloku Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilib, bununla da Azərbaycan elektroenergetikasının inkişafında yeni mərhələnin əsası qoyulub. Prezident İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamı ilə həmin tarixin ölkəmizdə Energetiklər Günü kimi təsis edilməsi milli elektroenergetika salnaməmizin daha bir parlaq səhifəsi, ölkə rəhbərliyinin bu sahədə çalışan insanların fədakar əməyinə verdiyi böyük dəyərin ifadəsidir.

Bu gün Balakəndə energetika sahəsinin işçiləri, Balakən Elektrik Şəbəkəsinin kollektivi öz peşə bayramlarını yüksək səviyyədə qeyd etdi.Təbrikə gələn, tədbirə qatılan rayon rəhbəri İslam Rzayev,rəhbərin birinci müavini Turan Dibirov,rayon elektrik şəbəkəsinin rəisi Sabit Məmmədov və rəhbərliyindəki kollektivlə birgə dağüstü parkda ulu öndərin abidəsini gül çiçəklə ziyarət edərək tədbirə başladılar. Tədbirdə rayon rəhbəri İslam Rzayev kollektivin işindən, işçilərin fədakarlığından danşdı. Çıxışında elktrik xidmətinə il 12 ay ehtiyac olduğunu, önəmini vurğulayan İslam müəllim bunu el arasındakı bir deyimlə-adətən qaza daha çox qışda, suya yayda,işığa isə hər fəsildə,hər gün ehtiyac duyrıq-deyə ifadə etdi. Şəbəkənin rəisi Sabit müəllim rayonda elektrik sahəsində görülən və qarşıda görüləcək işlərdən danışaraq, Balakənlilərin 24 sat fasiləsiz elektrik enerjisi ilə təmin olunmasında əllərindən gələni edəcəklərini bildirdi.Balakən RİH-in Başçısı İslam Rzayev İşlərində fərqlənən bir qrup elektrik işçilərini Balakən Rayon İcra Hakimiyyətinin "Fəxri Fərmanı" ilə təltif edərək kollektivi təbrik etdi,işlərində uğurlar dilədi.

Rəsmi hissənin sonunda xatirə şəkil çəkildi.





**YENİ BALAKƏN**

# Balakən rayonunda toxum sərgi-satış yarmarkası və Aqrar Biznes Festivalı keçirildi








Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin və Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 01 oktyabr 2024-cü il tarixdə Balakən rayonunda toxum sərgi-satış yarmarkası və Aqrar Biznes Festivalı keçirildi.

Festivalı Balakən Rayon İcra Hakimiyyətinin Başçısı İslam Rzayev açaraq qonaqları salamladı, rayonun iqtisadi göstəriciləri, kənd təsərrüfatı sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verdi. İntensiv üsulla inkişafın faydalarından söhbət açdı.

Toxum sərgi-satış yarmarkasında payızlıq dənli bitkilərin əkini üçün yüksək reproduksiyalı, sertifikatlı toxumlar nümayiş olunub. Sərgidə Kənd Təsərrüfatı Nazirliyinin qurumları və digər dövlət müəssisələri, yerli toxum istehsalçıları, iri toxum istehsalı və satışı ilə məşğul olan şirkətlər, həmçinin kənd təsərrüfatının digər sahələrində ixtisaslaşmış yerli şirkətlər iştirak ediblər.

Sərgidə dənli (arpa, buğda), qarğıdalı, tərəvəz bitki sortları və toxumları, kənd təsərrüfatı təyinatlı müxtəlif texnika və aqreqatlar, innovativ suvarma texnologiyaları, alternativ enerji mənbələri, müasir texnologiyalar əsasında əldə olunmuş əkin materialları və bitki mühafizə vasitələri nümayiş olunub. Toxum sərgi-satış yarmarkası çərçivəsində fermerlərə sertifikatlı toxumun əldə olunması, sortların regionların torpaq-iqlim xüsusiyyətlərinə uyğun düzgün seçilməsi, toxumların təmizlənməsi barədə ətraflı məlumat verilib. Kənd Təsərrüfatı Nazirliyinin müvafiq qurumları fermerlərə operativ məsləhət xidməti göstəriblər.

Təşkil olunan sərgi və festivallarda fermerlər üçün kredit yarmarkaları da təşkil olunub. Yarmarkalarda 5-ə yaxın bank və bank olmayan kredit təşkilatı öz məhsullarının sərgiləyib, fermerlərə güzəştli kreditlərlə bağlı məlumatlar veriblər.

Toxum sərgi-satış yarmarkaları Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı, Aqrar Xidmətlər Agentliyi, Azərbaycan Toxumçular Assosasiyası və bir sıra özəl şirkətlərin birgə tərəfdaşlığı ilə keçirilir.

**YENİ BALAKƏN**

# Bu gün Vahidi andıq









Artıq 44 günlük,II Qarabağ müharibəsindən 4 il ötür.Torpaqlarımız işğaldan azad olundu,adımız sanımız qayıtdı,vətənimiz bütövləşdi,tarixi qələbə çaldıq.O qədər tarixi ki,son iki yüz ildə müsəlman türkün hələ torpaq aldığı olmamışdı; itirə-itirə, parçalanaraq əldən gedirdi vətən torpağı. 2020-nin 28 Sentyabrında Ali Baş Komandanın hücum əmri ilə başlayan, elə 2020-nin 10 Noyabrında müzəffər Azərbaycan ordusunun igid, qəhrəman əsgərlərinin yüksək rəşadət göstərərək, canları,qanları bahasına cəmi 44 gün ərzində zəfərlə sonlandırdığı ikinci Qarabağ müharibəsindən Balakən rayonunun 31 şəhidi var...

Bu gün II Qarabağ adlı Vətən Müharibəsində yüksək rəşadət göstərərək, şəhadətə yüksəlmiş əfsanəvi tank komandiri Vahid Tahir oğlu Əlisoltanovun anım günüdür. Bu münasibətlə Balakən Şəhidlər Xiyabanında anım tədbiri keçirildi.Tədbirdə rayon ictimaiyyəti, şəhid ailələri, qazilər, veteranlar, gənclər,din xadimləri,Təhsil kollektivi, Mədəniyyət işçiləri, Balakən RİH-dən, YAP Balakən rayon təşkilatından nümayəndələr, şəhidin cəbhə və iş yoldaşları,qeyri hökümət təşkilatından və digər qonaqlar iştirak etdilər.Tədbir şəhidin ruhuna fatihə ilə başlayaraq qonaqların çıxışları, məktəblilərin şeir kompozisiyası ilə davam etdi..

Tədbirin ikinci hissəsi olan dini mərasim və ehsan süfrəsi şəhidin evində keçirildi.4-cü ildir bu ənənəni davam etdirir şəhid ailəsi,büdcəsinin imkan verdiyi ən yüksək səviyyədə.

Ailə övladına verdiyi dəyərdə daşıyacaq, övladın ailəyə bəxş ediyi şərəfi.Şəhidə ehtiram böyük və milli dəyərdir, bu onun haqqı olduğu kimi bizim də borcumuzdur.Vahidim,sən unudulmazsan.Səni Rəbbim unutmadı, cənnətiylə müjdələdi.Səni tarix unutmadı, yaddaşına qızılı zəfərlə yazdı...

**P.S.**Tədbirdə dünən Bərdə rayonunda keçirilən,o tədbirdə iştirak etmiş Balakənli şəhid ailəsi üzvünün telefonunda bir şəhidin anım tədbirindən qısa videoya baxdım. Sən demə elə əsl tədbir oralarda keçirilirmiş.Tüksək təşkilkatçılıq, külli maliyyə, iş adamlarının böyük dəstəyi, çox sayda məktəblilər bəlkə də bir neçə məktəb iştirak edirdi,rayon ictimaiyyəti "ən" qədər,vəzifəlilər hamısı bir nəfər kimi, şəhidlər xiyabanının bir tərəfində böyük ehsan süfrələri ki,şəhidin ailəsi ora 1 qəpik də olsun xərcləmir... Bərdəlilər şəhidlərini unutmur, ildən-ilə daha möhtəşəm, daha dərin ehtiramla, hörmətlə anırlar hər birini. Tədbirlərini böyüdürlər, belə ki,başqa rayonlardan qonaqlar da dəvət edirlər, söz verirlər, qonaqlarını layiqincə ağırlayırlar, qulluğunda dururlar. Qonaq dediyimiz elə digər rayonların şəhid ailələridir..

Sevinirəm bu birliyə.Biri birinə dəstək, xeyrinə,şərinə şərik olmalarına.









Əlaqələrinə, biri birinə gedib gəlmələrinə. Qədim Oğuz ellərində olduğu kimi..

Bu milli birliyimizin,bütövlüyümüzün təməlidir, bu təməli şəhid ailələri qoydu, hansı ki,övladları bu təməl üçün canlarını verərək vətən adlı torpağı aldılar.

**Ramazan Abal**

# Şəhid Köklərov Sərxan Eyvaz oğlunun illiyi və anım günü



Keçən il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlandı. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşıya qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Bu lokal antiterror tədbirlərinin sonunda qondarma rejimin özünü buraxması Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış bütün əraziləri üzərində suverenliyini tam təmin etdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu.

Prezident İlham Əliyev bu il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si Sərəncama əsasən hər il ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək.

**Ardı 4-cü səhifədə**







# Şəhid Köklərov Sərxan Eyvaz oğlunun illiyi və anım günü

Əvvəli 3-cü səhifədə

Bu gün Balakəndə antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış qəhrəmanımız Köklərov Sərxan Eyvaz oğlunun anım günü və illiyi yüksək səviyyədə qeyd olundu. Şəhidlər Xiyabanında başlayan tədbirdə rayon rəhbəri İslam Rzayev, hüquq mühafizə orqanları, din xadimləri, şəhid ailələri, qazilər, müharibə veteranları, təhsil şəbəsi, şəhidin övladlarının təhsil aldığı Nəsimi adına şəhər 2 saylı tam orta məktəbin şagird müəllim kollektivi, rayon ictimaiyyəti iştirak etdi.

Məktəblilər şəhid Sərxan üçün yazdıqları şeirləri hava şarına bağlayaraq səmaya buraxdılar. Şəhidimizin qardaşı əzizimiz Absaləddin Köklərov rayon rəhbərindən razılığını bildirərək tədbirdə iştirak edən hər kəsəiştirak etdikləri üçün təşəkkür etdi. Tədbirin dini hissəsi şəhidin evində davam etdi...

**P.S.** Şəhidimiz Sərxan Köklərovun çox gözəl ev muzeyi var.İnşallah növbəti nömrəmizdə şəhidin ev muzeyindən geniş təqdimat hazırlayacağıq.

**Ramazan ABAL.**







# Ana südü ilə qidalanmanın əhəmiyyəti







Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitunun təşkilatçılığı ilə Müəssisənin Neonatal şöbəsinin böyük elmi işçisi Lalə Rzayeva tərəfindən "Ana südü ilə qidalanmanın əhəmiyyəti" mövzusunda Balakən rayonunda yerləşən bir sıra doğuşa yardım müəssisələrində neonatoloqlar, mamalar, uşaq tibb bacıları üçün seminarlar keçirilib. Ana südünün əhəmiyyəti barədə məlumatlandırıcı söhbətlər aparılıb.

**YENİ BALAKƏN**

# Balakən OİK boksçularının qələbəsi

Balakən Olimpiya İdman Kompleksinin nəzdində fəaliyyət göstərən, Ruslan Hüseynovun rəhbərliyindəki boks klubunun boksçularından ibarət komanda Ağsu şəhərində keçirilən açıq boks turnirində tam heyətlə qələbə qazanaraq qalib oldular. Ruslan müəllimin fəaliyyəti, profesionallığı nəticələrdən də məlum olur. Boksçular Balakənə bu turnirdən 11 qızıl, 2 gümüş medalla qayıtdılar.

Təbrik edirik! Uğurlarınız bol olsun. Qələbə sorağınız daha mötəbər, böyük yarışlardan gəlsin.

**YENİ BALAKƏN**



# Ofeliya Şabanovanın "Sağ ol, Əzizim" adlı solo konserti



Balakənlimiz, Balakəndə və rayondan kənarda da tanınan, məşhur sənətkar Ofeliya Şabanova düz 20 il sonra doğma rayonunda ikinci konsert proqramı ilə çıxış etdi.İlk konserti bundan 20 il əvvəl hələ 14 yaşındaykən, elə bu məkanda,əvvəlki mədəniyyət evinin zalında olmuşdu. O zaman anası ağır xəstə idi. Anasına çox bağlı olan Ofeliya xanım etiraf edirdi ki, o kiçik yaşda ilk konsertini anasına dəstək olmaq, onun müalicəsinə kömək üçün vervişdi. Amma pul hər şeyi həll edə bilmirmiş. O ili anası vəfat etdi.

Ofeliya sarsıldı,amma yıxılmadı. Dim-dik durdu ayaqda.İlk addımını anası üçün atdığı bu yoldan geri dönmədi, əksinə irəlilədi zirvələrə doğru. Bu gün Ofeliya Şabanova respublikada tanınır, sevilir, alqışlanır: Səsi, sənəti, qabiliyyəti ilə, duruşu, mətanəti ilə, Balakənə məxsus istiqanlığı, mədəniyyəti, tərbiyəsi, mentaliteti ilə. Ölkədə rayonumuzun mədəni təmsilçisi olmağa Balakənlilərin sevgi mandatına sahib biridir, Ofeliya Şabanova.

Balakən Mədəniyyət Mərkəzində baş tutan ikinci konsert Ofeliya xanımın respublika turunun ilk konsertidir. Doğma rayonundan başlayan konsert proqramı ölkə boyunca davam edəcək. Niyə də olmasın..

Gözəl axşam idi, qəşəng də konsert keçdi. İnsanlar mədəni istirahət etdilər.

Çox şey dəyişəcək amma Ofeliya xanımın anaya aid mahnılarındakı doğma anasına həsrəti, sevgi mahnılarındakı həyat yoldaşına olan məhəbbəti və Balakənli olmağı heç zaman dəyişməyəcək.

**Ramazan ABAL**

## ETİBARSIZ SAYILIR

Balakən rayon Mərkəzi Xəstəxanasv PHŞ tərfindən Yekayeva Yeganə Balay qızına verilmiş GBC seriyalı 067983 nömrəli MALLARIN ALINMASI üçün VƏKALƏTNAMƏ itdiyi üçün etibarsız saylır.

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100